# Mövzu 9. PALEOGEY QURUSU

**Madaqaskar fauna vilayəti:** Ümumi xarakteristikası-Bu vilayət Madaqaskar adasını və bir sıra kiçik adaları, daha doğrusu Seyşel, Amirant, Kamor və Maskarın adalarını əhatə edir.Buna baxmayaraq, xırda adaların faunası Madaqaskar faunasından, başlıca olaraq bir sıra növlərin olmaması ilə kəskin surətdə fərqlənir.

Madaqasakar faunası Afrikanın dədim faunasının törəməsi olub əsas etibarı ilə aşağıdakı əlamətlərlə xarakterizə olunur:

1) Burada olduqca müxtəlif olan kirpilər,tenreklər fəsiləsi yaşayır.

2) Yarımmeymunlar olduqca zəngindir.Burada endemik Lemurlar fəsiləsi yaşayır.

3) Endemik primitiv viverralar,xüsusən fosslar vardır.

4) Afrikada geniş yayılmış olan məməlilər,dırnaqlılar,meymunlar və viveralardan başqa bütün yırtıcılar burada yoxdur.

5) Bu fauna Heotiopika faunasına tamamilə oxşardır.Madaqaskar faunasının Neotropika faunasına çox yaxın olması bir zaman yer kürəsi üzərində geniş yayılmış olan qədim qrupların Madaqaskarda və Neotropikada qalması ilə izah olunur. Bu surətdə Madaqaskar faunası əsl qədim ada faunasıdır.

Madaqaskarın daxili hissələri yastı dağlar ilə örtülmüşdür.Bu dağlar və sahil xətti arasında qalan meşələrlə örtülüdür ki, belə meşələr Madaqaskar adasının şərq hissəsində daha sıx və böyükdürlər, adanın cənub qurtaracağı isə səhralıqdır.

Ekoloji cəhətcə Madaqasakar faunası meyvəyeyən və ağacda yaşayan çoxlu miqdarda formaların olması və otyeyən iri heyvanların heç olmaması ilə xarakterizə olunur.

***Əsas qruplar***-Madaqsakar kirpilərin, lemusların radiyasiya mərkəzidir. Kirpilərin 10-a qədər cinsi və 20-i növü olub, hazırda yaşayan həşaratyeyənlərin ən primitivlərinə aiddir. Lemurların 7 cinsi və 36 növü məlumdur ki, bunlar Madaqaskar məməlilərinin xeyli faizini təşkil edir. Ən xarakter növlər indri, lemur-kamma Avropada tapılan yarımmeymunlara çox oxşardır.Bunların içərisində nəhəng formalar da vardır. Madaqaskarda qazıntı halında daha çox lemurlar tapılmışdır ki, bunlardan bəziləri Avropada qazıntı halında tapılan yarımmeymunlara çox oxşardır.. Gəmiricilərin 1 endemik fəsiləsi vardır bu fəsilə siçanlar fəsiləsinə çox yaxın olub, 8 cinsi vardır. Viverraların 7 cinsinin 6-sı endemikdir. Madaqaskarda yaşayan yeganə dırnaqlı heyvan – su donuzu endemik növ olsa da, geniş yayılmış Afrika cinsinə aiddir. Bundan başqa Madaqaskarın dördlük çöküntülərindən hippopotam tapılmışdır. Nisbətən çox da uzaq olmayan geoloji bir dövrdə Mozambik boğazı, ehtimal ki, daha dar olmuşdur və çox yaxşı üzücü olan bu heyvanlar Madaqaskara qədər gəlib çıxa bilmişlər. Madaqaskar quşlarının 110 növü endemdir,əsas yeri kəkliklər tutur.Yarımqazıntı halında heyvanlardan bu adada uçmayan nəhəng epiornislər tapılmışdır ki, bunlar

tilsizlərin xüsusi dəstəsinə aiddirlər.12- yə qədər növü vardır. Bu növlərdın biri 3 m hündürlükdə olmuşdur. Eniornisləri ehtimal ki, hələ ərəblər görmüşlər, çünki bu adada hələ ərəblər tərəfindən işlədilən tüfəng daşları ilə birlikdə bu quşların sümüklərini də tapırlar. Bu quşların tələf olmalarına ehtimal ki, müstəmləkəçi ərəblər tərəfindən bilavasitə təqib edilməsi səbəb olmuşdur.Mavrikiya adasında yaşamış olan çox böyük ( hind toyuğu boyda) və uçmayan göyərçin – dront XV11 əsrin ortalarında məhv edilmişdir.

Maqdaqaskarda sürünənlər azdır və onların ümumiyyətlə geniş yayılmış olan bir çox qrupları burada yoxdur. Ancaq xameleonlar müstəsna hal təşkil edir. İquanlar və Boa cinsindən olan yatağan ilan xarakterdir.

**Efiop vilayəti.** ***Ümumi məlumat***-Bu vilayətdə böyük səhradan cənuba bütün Afrika qitəsi və həmçinin Ərəbistanın cənub hissəsi, Sokotr adası və Afrikadan qərbə tərəf yerləşmiş bir sıra xırda adalar aiddir.Ancaq Yaşılburun arxipelaqı, Kanara və Madeyra adası coğrafi cəhətcə Afrikaya aid olsalar da, faunası ümumiyyətlə Avropa faunasına yaxındır. Efiop faunası tipik qitə faunasıdır, bu fauna çox zəngin və müxtəlifdir. Faunanın xarakterik əlamətləri aşağıdakılardır:

1) Məməlilərdən damanlar və borudişlilər, quşlardan isə Afrika dəvəquşusu endemdir. Məməlilərdən antiloplar fəsiləsi endemik olmasa da burada çox zəngindir və müxtəliflik əldə edir.Borudişlilər ancaq Efiopa aiddir. Damanlar vı dəvəquşular isə Efiop sərhəddindən şimal- şərqə doğru da çıxırlar.Məməlilər fəsilələrindən sarı göstəbəklər, suitinəbənzər yereşənlər, sıçrağanlar, iynəquyruq sincablar uzunayaqlar, yerqazanlar, zürafələr, hippopotomlar fəsilələri endemikdirlər.

2) Efiop faunası Hindistan-Malay faunası ilə çox oxşardır ki, bu oxşarlıq həmin faunalarda yüksək təsnifat qrupların olmasında nəzərə çarpır: Efiop faunasında folidotlar, fillər, ensizburun meymunlar, kərkədanlar, maralcıqlar yüksək təsnifat qrupları əmələ gətirirlər.

3) Efiop vilayəti mənfi cəhətcə onunla xarakterizə olunur ki, bu faunada məməlilərin geniş yayılmış fəsilələrindən göstəbəklər,ayılar və marallar yoxdur.

Efiopiyanın tipik landşaftları savannalar və rütubıtsevən tropik meşələrdir ki, bunlar burada çox böyük massivlər əmələ gətirirlər. Ancaq cənub- qərbdə steplər səhralara keçir( Kalaxarlar). Bəzi yerlərdə geniş dağlıq ölkələr də vardır.

Ekoloji cəhətdən Efiop faunası biotopların dolu olması ilə( bu, Efiop faunasının qədimliyini göstərir) və otyeyən iri məməlilərin, xüsusilə antilopların bolluğu ilə xarakterizə olunur ki, bu da geniş savanna sahələrinin olması ilə əlaqədardır.

***Əsas qruplar*** -30- a qədər forması olan sarı göstəbəklər fəsiləsi öz anatomik əlamətlərinə görə Madaqaskar kirpilərinə daha çox yaxındır. Folidotların 7 növündın 4-ü Efiopiyada, 3-ü Hindistanda və Cənub- Şərqi Asiyada yaşayır.

Yırtıcılar, xüsusən viverralar Efiopiyada yaxşı yayılmışdır. Ərəbistanda, Suriya və Fələstində yayılmış olan bir növdın başqa damanların hamısı Orta və Cənubi Afrikaya məxsusdur.Bunların içərisində yerdə və ağacda yaşayan formalar vardır. İynəquyruqlu sincab fəsiləsinə xarici görünüşcə qismən sincablara, qismən də uçan sincablara oxşar olan heyvanlar daxildir. Damanlar hazırda Afrika faunası içərisində olduqca kiçik yer tutsalar da, ancaq Misirin üçlük dövrü çöküntülərindən ( oliqosen) tapılmış çox miqdarlı və müxtılif formaların qalıqlarına nəzərən demək olar ki, onlar bu dövrdə Afrika faunasında görkəmli yer tutmuşlar. Bu primitiv damanlar dovşan böyüklüyündən tutmuş aslana qədər olmuşlar və Aralıq dənizi ölkələrinin müxtəlif yerlərində, xüsusən Yunanıstanda tapılmışlar. Bunlar ehtimal ki, Afrikada meydana gəlmişlər. Efiyopiyada dırnaqlılar, xüsusən də antiloplar geniş yayılmışdır. Bunların içərisində dovşandan bir az böyük olan formalar və həmçinin də atdan böyük olan formalar-qıvraq qəzallar və ağır hərəktli kannalar vardır. Bunların bəziləri savannalarda, bəziləri dağlarda, bəziləri bataqlıqlarda yaşayır.

Ən çox yayılmış Efiop antilopları bunlardır: qnu, atabənzər antiloplar, dağ çapaıları, su keçiləri, kudu, kanna. Keçilər və qoyunlar demək olar ki, yoxdur.Borudişlilər dəstəsinin ancaq bir Oruteropus cinsi vardır ki, bu cinsə bir-birinə yaxın olan bir neçə növ daxildir. Efiopiyada yarımmeymunlar azdır.Burada yaşayan yarımmeymunların hamısı lorilər fəsiləsinə aiddirlər ki, bu yarımmeymunlar qrupu Madaqaskarda yaşamır, ancaq Hindistan- Malay vilayətində təsadüf olunurlar.Əksinə, meymunlar Efiopiyada olduqca çoxdurlar. Efiop quşları çoxnövlü və müxtəlifdir.Ancaq yüksək təsnifat dərəcəsindən olan endemik qruplar nisbətən azdır.Bu başlıca olaraq onunla izah edilir ki, Efiopun bir çox xarakter qrupları Hindistan_ Malay vilayətində də vardır. Sürünənlərin sayı çoxdur. Suda- quruda yaşayanlardan mahmızlı qurbağa endemdir, endemik balıqlardan isə çoxüzgəcli və protopterus yaşayır.

**Yarımvilayətlər:** Efiop vilayəti 3 yarımvilayətə bölünür:

**1) Qərbi Afrika yarımvilayəti.** Konqo və Niger çayları hövzələrindəki rütubət sevən meşələri və onun ətraf ərazilərini əhatə edir. Cənubi Amerika tropiklərində müşahidə edilən keçilməz cəngəlliklərdən fərqli olaraq bu yarım vilayətdə ağaclar 20-30 m yuxarıda qol-budaq verir. Endemik məməlilərdən yereşən Samur, şimpanze, qorilla,okapi, viver, gəmiricilər, yarasalar geniş areala malikdir. Hippopotam meşə çayları sahillərində yaşayaraq çox böyük məsafələrə köçür və yaşayış tərzinə görə vəhşi donuzları xatırladır. Quşlardan sesarka, göyərçin, turac, kərkədan quş, tutuquşular, cako, katibə quş xüsusilə xarakterikdir. Diqqətəlayiqdir ki, Qərbi Afrika yarəmvilayəti üçün xarakter olan bir sıra cinslər və hətta fəsilələr Şərqi Afrikada yoxdur, ancaq bunların Hindistan, Zond adaları, Molluk adaları və s. meşələrində, həm də Madaqaskarda yaşayan nümayəndələri

vardır. Məs. insanabənzər meymunlardan Oranqutan Sumatra və Eorneo dağlarında yaşayır, maralcıqlar və kərkədan quşları Hindistan- Malay üçün də xarakterdir.Bir sıra Afrika-Cənubi Asiya heyvanlarının belə parakəndə yayılmaları ehtimal, üçlük dövrün ortalarının qalığıdır ki, o zaman rütubətsevən tropik meşələr Afrikada və Cənubi Asiyada böyük yer tuturdu və bu iki qitə bir-birilə birləşmiş idi.

**2 Cənubi Afrika və Kapi yarımvilayəti** - Bu yarımvilayət geniş savanna, kiçik subtropik 2) Cənubi Afrika və ya Kap yar meşələr, qismən dağətəyi ərazilərdə rütubətli subtropik çodyarpaq meşə landşaftları ilə səciyyələnir.səhra landşaftı çox mühüm rol oynayır. Bu yarımvilayət

iki digər Efiop yarımvilayətlərindən ayrılmasalar da ancaq yaxşı nəzərə çarpan bir sıra endemik qruplara malikdir. Bu qruplar içərisində uzunayaq və sarı göstəbəklər birinci yeri tuturlar. Bunlarla yanaşı Kalaxarinin susuz səhra və yarımsəhra landşaftları da geniş əraziyə malikdir.Məməlilərdən endemik cinsə malik viveralar, gəmiricilər, qulaqlı it, antilop, dağ sıçrağanı , boz kaftar, endemlərdəndir. Quşlardan endemik cinsə mənsub uzunquyruq, balsoran, bağrıqara, dovdaq, səhra və yarımsəhra landşaftına malik olan ərazilərdə geniş yayılmışdır.Avropalılar tərəfindən aparılan müstəmləkəçilik Cənubi Afrika faunasına kəskin surətdə mənfi təsir göstərmişdir. Daha doğrusu bir çox iri məməlilər buradan şimala doğru sıxışdırılmışlar ki, bunlara misal olaraq filləri, gərkədanları, aslanları, quşlardan isə dəvəquşunu göstərmək olar. Başqa növlər isə məsələn, kvaqa, bəzi antiloplar ümumiyyətlə tələf edilmişlər.

**3) Şərqi Afrika yarımvilayəti.** əsas etibarilə savannalardan və başlıca olaraq Həbəşistanda yayılmış dağlıq landşaftlarından ibarətdir. Bu yarımvilayətin faunası, landşaftların müxtəlifliyi ilə əlaqədar olaraq zəngin və Efiopun başqa yarımvilayətlərinə nisbətən çeşidlidir.

Ümumiliklə geniş yayılmış efiop cinsləri burada daha çoxdur. Borudişlilər və pavianlar əsas etibarı ilə bu yarımvilayətə məxsusdur. Quşlardan dəvəquşu xüsusilə xarakterikdir. Bu yarımvilayətin faunası çox zəngin olmaqla yanaşı, Abissina ərazisində yayılmış dağ landşaftı da inkişaf etmişdir. Əyər Avstraliya üçün kolluqlar, Cənubi Amerika üçün rütubətli tropik qalın meşə və cəngəlliklər səciyyəvidirsə, Afrika üçün bu materikin yarısından çoxunu əhatə edən savannalar xarakterdir. Bu yarımvilayətin faunası çox zəngin olmaqla iri otyeyən heyvanlardan antilopları, zürafə, vəhşi camış, begemot, fil, gərgədan, şir, uzunqulaq it, canavar vəs. geniş yayılmışdır.Bununla əlaqədar olaraq iri yırtıcı heyvanların miqdarı da bu yarımvilayətdə çoxdur.Belə yırtıcılar içərisində aslan birinci yeri tutur. Ancaq hazırda Avropalılar buradakı ov heyvanlarının amansız

surətdə qırılması bu yarımvilayətin əvvəllərdə iri məməlilərlə zəngin olan məməlilər faunasını xeyli azaltmışdır.